Azərbaycan Kibertəhlükəsizlik Təşkilatları Assosiasiyası

Azərbaycan Kibertəhlükəsizlik Təşkilatları Assosiasiyası
İctimai Birliyinin İdarə Heyətinin 12 mart 2024-cü il tarixli
010/İH nömrəli iclasının protokolu ilə təsdiq edilir.

# "Azərbaycan Kibertəhlükəsizlik Təşkilatları Assosiasiyası" İctimai Birliyinin EKSPERT KOMİTƏLƏRİNİN ƏSASNAMƏSİ

## 1. Ümumi müddəalar

1.1. "Azərbaycan Kibertəhlükəsizlik Təşkilatları Assosiasiyası" İctimai Birliyinin Ekspert Komitələrinin Əsasnaməsi (bundan sonra – Əsasnamə) "Azərbaycan Kibertəhlükəsizlik Təşkilatları Assosiasiyası" İctimai Birliyinin (bundan sonra – AKTA) müxtəlif mövzular, sektor və texnoloji domenlər üzrə formalaşdırılmış ekspert komitələrinin fəaliyyət, prosedur və iş qaydalarını müəyyən edir.

1.2. Ekspert Komitələri (bundan sonra – Komitə) könüllülük əsasında fəaliyyət göstərən işçi qruplardır.

1.3. Komitə aid olduğu sahə üzrə məlumat paylaşır, məsələlər və problemləri müzakirə edir, təklif, tövsiyə və sənədləri hazırlayır, seminar və məlumatlandırma sessiyaları təşkil edir.

1.4. Komitənin qərarları və təklifləri AKTA fəaliyyətində nəzərə alınır və AKTA-nın təqdim etdiyi təklif və tövsiyələrin əsasını təşkil edir.

1.5. Bu Əsasnamə AKTA-nın Nizamnaməsinin 6.3.1.2-ci yarım bəndinə əsasən, AKTA-nın İdarə Heyəti tərəfindən təsdiq olunur və dəyişdirilir.

1.6. Bu Əsasnamənin ən son təsdiq edilmiş nüsxəsi AKTA-nın rəsmi internet səhifəsində yerləşdirilir və üzvlüyə müraciət edənlər üçün əsas hesab olunur.

1.7. Bu Əsasnamə həm AKTA üzvü olan hüquqi şəxsləri təmsil edən ekspertlərə, həm də fiziki üzvlüyü olan fərdi ekspertlərə şamil olunur.

## 2. Komitələrin adları, üzvləri və seçim meyarları

2.1. Aşağıdakı Komitələr mövcuddur:

2.1.1. Hüquq və ictimai təşəbbüslər komitəsi;

2.1.2. Yerli həllər, məhsullar, innovasiya və startaplar komitəsi;

2.1.3. Təhsil, tədris və insan resursları komitəsi;

2.1.4. Kibertəhdidlərə qarşı mübarizə, texniki məsələlər və proseduralar komitəsi.

2.2. AKTA-nın İdarə Heyətinin, AKTA üzvü olan hüquqi və fiziki şəxslərin təşəbbüsü əsasında yeni Komitələrin və yaxud mövcud Komitələrin alt komissiyalarının yaradılması mümkündür.

2.3. Bu Əsasnamənin 2.4-cü bəndində göstərilən seçim meyarlarına uyğun aşağıdakı şəxslər Komitələrə seçilə bilər:

2.3.1. AKTA-nın üzvü olan hüquqi şəxslərin əməkdaşları;

2.3.2. AKTA üzvü olan fərdi ekspertlər.

2.4. Komitələrin fəaliyyətində iştirak etmək üçün müraciət edən şəxslər aşağıdakı tələblərə cavab verməlidirlər:

2.4.1. yaşı 18-dən yuxarı olan Azərbaycan Respublikasının vətəndaşları və ya Azərbaycan Respublikasında yaşayış və (və ya) iş icazəsi almış əcnəbilər və vətəndaşlığı olmayan şəxslər;

2.4.2. informasiya texnologiyaları, kompüter elmləri, kibertəhlükəsizlik, iqtisadiyyat, menecmentlik, hüquqşünaslıq və (və ya) əlaqəli sahələr üzrə bakalavr səviyyəsi üzrə ali təhsil və (və ya) magistr və daha yuxarı dərəcəli təhsil və (və ya) nüfuzlu beynəlxalq sertifikat (başlanğıc səviyyə üzrə sertifikat(lar) istisna) əldə etmiş şəxslər;

2.4.3. informasiya texnologiyaları, informasiya təhlükəsizliyi, kompüter elmləri, kibertəhlükəsizlik, iqtisadiyyat, menecmentlik, hüquqşünaslıq və (və ya) əlaqəli sahələr üzrə minimum 3 il iş təcrübəsi.

## 3. Komitələrə müraciət proseduru

3.1. Komitələrə müraciət AKTA rəsmi veb saytında yerləşdirilmiş şəxsi kabinet vasitəsilə edilir.

3.2. Fiziki şəxslər uyğun hesab etdikləri Komitələrə birbaşa şəxsi kabinetdən elektron keçid vasitəsilə müraciət edirlər.

3.3. Hüquqi şəxslər hər hansı bir əməkdaşının Komitədə iştirakını məqsədəuyğun hesab etdiyi təqdirdə, həmin şəxsin şirkətin elektron kabinetində ekspert kimi qeydiyyata alınması və müvafiq Komitələrin fəaliyyətində iştirak etməsi üçün elektron keçid vasitəsilə məlumatları təqdim etməlidir.

3.4. AKTA aparatının müvafiq məsul rəhbər əməkdaşı daxil olmuş müraciətlərə baxır, müraciəti təsdiq və yaxud ləğv edir. Bu barədə müraciət edən şəxsə e-poçt və yaxud şəxsi elektron kabinet vasitəsilə məlumat verilir.

## 4. Komitələrin iş prinsipi

4.1. Komitələrin üzvləri müddətsiz seçilir və könüllülük prinsipi əsasında fəaliyyət göstərirlər.

4.2. Komitənin üzvləri sırasından bir il müddətinə sədr və katib seçilir. Komitənin alt komissiyaları olduğu təqdirdə, alt komissiyanın üzvləri sırasından alt komissiyanın sədri seçilir.

4.3. Komitənin mövcud sədr və katibi növbəti il yenidən seçilə bilər.

4.4. Komitənin sədri və katibi Komitə üzvlərinin ən azı üçdə ikisinin iştirak etdiyi səsvermədə iştirak edənlərin yarısından çoxunun səs çoxluğu ilə seçilir.

4.5. Sədr komitənin fəaliyyətinə rəhbərlik edir, iclasları çağırır və iclaslara sədrlik edir, hazırlanmış təklif, tövsiyə və sənədləri AKTA-nın aparatına təqdim edir.

4.6. Katib komitənin fəaliyyətini əlaqələndirir, iclasları təşkil edir və iclasların katibliyini aparır, hazırlanmış təklif, tövsiyə və sənədlərin yekun nüsxələrini formalaşdırır və komitənin sədrinə təqdim edir.

## 5. Komitələrin iclasları

5.1. Komitələrin iclasları fiziki və ya onlayn görüş formatında keçirilir.

5.2. Hər rübdə ən azı bir iclas keçirilir.

5.3. Komitənin hər bir üzvü il ərzində keçirilən iclasların ən azı yarısında iştirak etməlidir.

5.4. İclaslarda Komitənin sahəsinə uyğun olaraq, müzakirələr aparılır, təklif, tövsiyə, sənədlər hazırlanır və məlumatlar paylaşılır.

5.5. İclaslar Komitənin katibi tərəfindən protokollaşdırılır və AKTA aparatına təqdim olunur.